# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2007-ci il 25 iyun tarixli 103 nömrəli və "Şəkər çuğundurunun emalı ilə məşğul olan hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə təhvil verilmiş şəkər çuğundurunun hər tonuna görə onun istehsalçılarına subsidiya verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 2 avqust tarixli 311 nömrəli qərarlarının ləğv edilməsi barədə**

"Azərbaycan Respublikası Prezidentinin "Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 7 aprel tarixli 569 nömrəli, "Toxumçuluq haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2007-ci il 12 mart tarixli 546 nömrəli, "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" 2015-ci il 23 iyul tarixli 571 nömrəli və "Azərbaycan Respublikasında şəkər çuğunduru istehsalının stimullaşdırılması haqqında" 2017-ci il 4 aprel tarixli 1314 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 1009 nömrəli Fərmanının qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 707, № 12, maddə 1341; 2009, № 10, maddə 860; 2014, № 2, maddə 201; 2015, № 2, maddə 227; 2016, № 4, maddə 800, № 5, maddə 955; 2019, № 10, maddə 1673) ləğv edilsin.

2. “Şəkər çuğundurunun emalı ilə məşğul olan hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə təhvil verilmiş şəkər çuğundurunun hər tonuna görə onun istehsalçılarına subsidiya verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 2 avqust tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1601; 2018, № 11, maddə 2434) ləğv edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 16 sentyabr 2020-ci il

№ 343